**Azərbaycan Respublikasının**

**Belçikadakı Səfirliyi**

**Haradan:** SBRS

**Haraya:** MMXİ, MİHİ, MİƏİ, MTSA

**Surəti:** MNKT, NAVŞ, SVŞN, Aİ üzv ölkələrindəki Səfirliklərimiz

**Çıxış nömrəsi:** **SBRS/ 752 /15** **Çıxış tarixi: 03/12/2015**

**Sənəd necə göndərilir:** Elektron poçt

**Səhifələrin sayı:** 1+1

**Əlavə olunur:**

**Məhdudlugu qrifi:** Adi

**Təciliiliyi:** Təcili

**Vacibliyi:** Vacib

**Məruzə üçün:** Nazirə

Nazir müavini M.Məmməd-Quliyevə

**Məlumat verilməsi üçün:**

**Məsələyə dair**: Cari ilin 1 dekabr tarixində AP-də keçirilmiş "Ermənistan Avrasiya və Aİ arasında: İnsan hüquqlarının gələcəyi necə olacaqdır" başlıqlı tədbir barədə

Səfir Fuad İsgəndərov

İcraçı: S.Qasımov

Nəzərinizə çatdırmaq istərdik ki, cari ilin 1 dekabr tarixində Avropa Parlamentində (AP) "Ermənistan Avrasiya və Aİ arasında: İnsan hüquqlarının gələcəyi necə olacaqdır" başlıqlı tədbir keçirilmişdir. Avropa Xalqları Partiyası siyasi qrupunun Estoniyadan olan üzvü Tunne Kelam ev sahibliyi ilə keçirilmiş tədbir Sərhədsiz İnsan Hüquqları təşkilatı tərəfindən təşkil olunmuşdur.

Tədbir Sərhədsiz İnsan Hüquqları təşkilatının bu yaxınlarda hazırladığı Ermənistanda insan hüquqlarına həsr olunmuş hesabatının təqdimatı məqsədi daşımışdır (*Sözügedən hesabat Səfirliyin SBRS-626-15 saylı, 12.10.2015 tarixli məktubu ilə Mərkəzə göndərilmişdir*) və iştirakçılara sənədin nəşr olunmuş versiyası təqdim olunmuşdur. Tədbir zamanı aşağıdakı məqamlar vurğulanmışdır:

- Ermənistanın Avrasiya İttifaqına üzvlüyünün ölkədə insan hüquqlarının qorunmasına heç bir aidiyyəti yoxdur. Rusiya ilə yaxınlaşma ("*Eurasian values*") nəticəsində ölkədə insan hüquqlarının vəziyyətinin pisləşməsinə yol verilməməlidir.

- Ermənistan Aİ-yə ixrac zamanı imtiyazlı GSP+ sistemindən faydalanır, eləcə də vizaların aradan qaldırılmasına dair Aİ ilə dialoq aparır. Bu məqamlar Aİ tərəfindən insan hüquqları sahəsində islahatlar aparılması üçün təzyiq aləti kimi istifadə oluna bilər.

- Polis zorakılığı problem olaraq qalmaqdadır. Elektrik haqqının artırılmasına etiraz olaraq keçirilən etirazlar zamanı, Ermənistan hökuməti insan hüquqlarına hörmət etdiyinə görə deyil, 2008-ci ilin mart hadisələrindən, eləcə də Ukraynadakı Maydan hadisələrindən qorxuya düşməsi səbəbindən, paytaxtın əsas yolunu bağlayan nümayişçilərə zor tətbiq etməkdən çəkinmişdir. Lakin polis tərəfindən saxlanılan nümayişçilərə qarşı sonradan həbsdə olarkən zor tətbiq edilməsinə dair faktlar mövcuddur.

- İnsan hüquqları sahəsində ən ağır vəziyyət ədliyyə sahəsindədir (*right to fair trial*). Bu sahə **sistematik** korrupsiyadan zərər çəkir. Ermənistanda hakimlərə verilən rüşvət məhkəmənin növündən asılı olaraq orta hesabla 500 dollardan 15000 dollara qədər dəyişir. 2013-cü ildə aparılmış sorğuda vətəndaşların 53%-i ölkənin ədliyyə sisteminə etibar etmədiyini bildirmişdir.

- Mühafizəkar cəmiyyətə malik Ermənistanda insanların böyük qismi LGBT sahəsində dövlət tərəfindən məhdudlaşdırıcı tədbirlər görülməsi tərəfdarıdır. Bu məsələdə Rusiya nümunəsinin də müəyyən təsiri vardır.

- Cinsiyyətə görə abort hallarına görə Ermənistan dünyada ilk onluqdadır. Dünyaya gələn uşaqlar arasında oğlanların sayı qızlara nisbətdə artmaqdadır.

- AP prezidenti M.Şultz 6 dekabr 2015-ci il tarixində konstitusiyaya düzəlişlərə dair Ermənistanda keçiriləcək referendumu izləmək üçün AP-nin dəvət olunması məqsədilə Ermənistan rəhbərliyinə məktub ünvanlamışdır. Belə ki, AP yalnız seçkiləri izləmək üçün müşahidəçilər göndərmək imkanına malikdir.

Məlumat və mətbuatda geniş işıqlandırılması üçün diqqətinizə təqdim edirik.